Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

# Zəngəzurun külək, Günəş və su enerjisi regionların yeni inkişaf mərhələsidir...

**Regionların sosial-iqtisadi inkişafının gücləndirilməsi üçün dövlət davamlı iqtisadi siyasət həyata keçirir. Ölkənin iqtisadi inkişafında bölgələrin ayrıca yeri var. Xüsusən də beş il əvvəl işğaldan azad edilən ərazilərin sosial-iqtisadi potensialını inkişaf etdirmək istiqamətində saysız işlər görülür, hökumət tərəfindən bu ərazilərin inkişafına dəstək məqsədi ilə davamlı olaraq müxtəlif proqramlar həyata keçirilir.**

Bunların fonunda regionların inkişafına dair dövlət proqramları və strateji planlar bu sahədə davamlı inkişafa şərait yaradır. Ekspertlərə görə, son illərdə aparılan genişmiqyaslı islahatlar, xüsusilə infrastruktur layihələri və investisiya təşviqi proqramları, ölkənin hər bir bölgəsində iqtisadi aktivliyi artırır.

Bildiyimiz kimi, azad Qarabağ və Şərqi Zəngəzurda həm infrastruktur, həm də sosial-iqdisadi işlər sürətlə aparılır, regionun inkişafı üçün müxtəlif tədbirlər həyata keçirilir. Gerçəkləşdirilən layihələr, proqramlar çərçivəsində regionların inkişafı üçün prioritet məsələlər əsas götürülür. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyat davam edir, eyni zamanda sosial-iqtisadi inkişaf üçün müxtəlif layihələr həyata keçirilir. Bütün bu layihələr çərçivəsində azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Eyni zamanda yeni istehsal müəssisələri yaradılıb və yaradılmaqda davam edir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni sənaye parkları və aqroparklar qurulur. Xüsusilə Ağdam, Füzuli və Cəbrayıl rayonlarında müxtəlif istehsal müəssisələri fəaliyyətə başlayır.

Azad ərazilərin bərpa olunan enerji potensialı da xüsusi qeyd olunmalıdır. Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji layihələri həyata keçirilir. Ötən il Qarabağ və Şərqi Zəngəzurdakı 32 su elektrik stansiyasında "AzərEnerji" tərəfindən 550 milyon kilovat saatadək ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal olunub. 2024-cü il ərzində Qarabağ və Şərqi Zəngəzurda ölkə rəhbərliyinin iştirakı ilə 7 su elektrik stansiyasının açılışı olub. Belə ki, Kəlbəcər rayonunda son dörd ildə "AzərEnerji" tərəfindən işğaldan azad edilən ərazilərdə tikilən ən böyük su elektrik stansiyası - 22,5 MVt-lıq "Yuxarı Vəng", 4,3 MVt-lıq "Zar", Laçın rayonunda 2,8 MVt-lıq "Zabux", 4,6 MVt-lıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 MVt olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" su elektrik stansiyaları istismara verilib.

Bununla da, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırığının icrası üzrə işlər ardıcıllıqla görülməkdədir. Belə ki, 4 il ərzində 270 MVt gücündə 32 su elektrik stansiyası istismara buraxılıb və 2025-ci ildə isə daha 11 su elektrik stansiyasının açılışı planlaşdırılır. Ümumilikdə isə, növbəti illərdə əlavə olaraq 200 MVt-lıq su elektrik stansiyalarının tikilməsi nəzərdə tutulur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" layihələrinin genişləndirilməsi çərçivəsində Cəbrayılda 240 meqavat gücündə günəş elektrik stansiyasının enerji sisteminə inteqrasiyası üçün yarımstansiya tikilir. Paralel olaraq "Nobel Energy" şirkəti tərəfindən 100 MVt gücündə Günəş elektrik stansiyasının tikintisinə də start verilib.

Ümumilikdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 500 MVt-a yaxın hidroenerji və 300-400 MVt gücündə günəş enerjisi layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Xudafərin və Qız Qalası Su Elektrik Stansiyaları da daxil olmaqla, bölgənin ümumi "yaşıl enerji" potensialı 1 000 MVt-dan artıq qiymətləndirilir.

Azərbaycan Prezident İlham Əliyev oktyabrın 28-də Cəbrayıl rayonunun Şahvəlli kəndində hər birinin gücü 50 meqavat olan "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməlini qoyub. "Şəms" Günəş Elektrik Stansiyası 50 meqavat gücündədir. Bu layihə ölkəmizin yaşıl enerji strategiyasının mühüm tərkib hissəsidir və Cəbrayıl rayonunun enerji xəritəsində yeni mərhələnin başlanğıcını qoyur.

Qeyd edilir ki, 2024-cü ilin mart ayında Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında 100 MVt gücündə Günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin istehsalı, satışı və istehlakı sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Ardınca bu ilin aprelində Azərbaycan Respublikası Hökuməti "Enerso Cəbrayıl" MMC ilə 50 MVt gücündə "Üfüq" Günəş Elektrik Stansiyası, "Clean Energy Jabrayil" MMC ilə isə "Şəms" Günəş Elektrik Stansiyası layihələri üzrə investisiya müqavilələri bağlayıb.

Ötən il Cəbrayıl rayonunun inzibati ərazisində dövlət mülkiyyətinə aid 229 hektar torpaq sahəsi bərpaolunan enerji mənbələrinin inkişafı üçün ayrılıb. Bu çərçivədə "Clean Energy Jabrayil" MMC üçün 135 hektardan çox,



"Enerso Cəbrayıl" MMC üçün isə 93 hektardan çox ərazi müəyyən edilib.

Prezident İlham Əliyev "Şəms" Günəş Elektrik Stansiyasının təməlini qoydu, daha sonra "Üfüq" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edib.

Məlumata görə, "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarında ildə ümumilikdə 206 milyon kilovat-saat elektrik enerjisinin istehsalı planlaşdırılır. Bunun nəticəsində hər il təxminən 44 milyon kubmetr təbii qaza qənaət ediləcəyi, atmosferə atılan zərərli emissiyaların isə 96 min ton azalacağı gözlənilir.

Stansiyalarda istehsal ediləcək elektrik enerjisinin 75 milyon kilovat-saatı "AzərEnerji" ASC-yə, 131 milyon kilovat-saatı isə "elektrik enerjisinin virtual ötürülməsi" prinsipi əsasında iri istehlakçılarla birbaşa bağlanan alqı-satqı müqavilələri üzrə satılacaq. "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının 2027-ci ildə istismara verilməsi planlaşdırılır.

Bu layihələrin icrası Şərqi Zəngəzurun yaşıl enerji mərkəzinə çevrilməsində Cəbrayıl rayonunun rolunu daha da gücləndirəcək.

Eksperlərin fikrincə, bu hadisənin özü bir daha onu göstərir ki, dövlətmiz Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaşıl enerji mənbələrinin inkişaf etdirilməsi məsələsində ardıcıl siyasət yürüdür. Artıq alternativ enerji mənbələri üzrə bu bölgədə 38 elektrik stansiyası fəaliyyətdədir və bir neçə ildən sonra onların sayı 50-yə çatdırılacaq.

Bu layihələr ümumilikdə Azərbaycanın enerji istehsalında şaxələndirmə siyasətini gücləndirir və 2030-cu ilə qədər ümumi enerji istehsalında bərpaolunan mənbələrin payının 30% həddini keçmək məqsədinə xidmət edir.

Qeyd edək ki, indiyə qədər işğaldan azad olunmuş ərazilərimizdə bir sıra bərpaolunan eneji layihələri uğurla icra edilib. Bu layihələr əsasında tikilən həmin stansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi onların iqtisadi əhəmiyyətini bir daha artırır və Qarabağ və Şərqi Zəngəzur regionlarının sosial-iqtisadi inkişafının gücləndirilməsi üçün hökumətin geniş iqtisadi siyasətinin olduğunu göstərir. Eyni zamanda bu gün Zəngəzurun külək, Günəş və su enerjisi regionların yeni inkişaf mərhələsini şərtləndirir. Həmçinin də sosial-iqtisadi inkişafın əsas elementinə çevrilir.

Mətbuatda qeyd edilir ki, Azərbaycanın zəngin bərpaolunan enerji potensialının mühüm bir hissəsi işğaldan azad edilmiş ərazilərdə cəmləşib. Son illər aparılmış elmi araşdırmalar və tədqiqat işləri nəticəsində burada Günəş, külək, hidro və digər bərpaolunan enerji növləri üzrə ciddi imkanların mövcudluğunu tam təsdiqləyib. Mütəxəssislər bölgənin bərpaolunan enerji üzrə texniki potensialını, təxminən, 10 qiqavat həcmində qiymətləndiriblər. Məhz buna görədir ki, dövlət başçısı İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun 10 min kvadratkilometrlik ərazisini "yaşıl enerji zonası" elan edib.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***